**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## “Tikinti obyektlərinin istismarına icazənin formaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 oktyabr tarixli 95 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Tikinti obyektlərinin istismarına icazənin formaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 11 sentyabr tarixli 302 nömrəli, “Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı”nın təsdiq edilməsi haqqında” 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli, “Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2015-ci il 12 yanvar tarixli 6 nömrəli və “Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması Qaydası və müddəti”nin təsdiq edilməsi haqqında” 2022-ci il 21 sentyabr tarixli 362 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 308 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 oktyabr tarixli 95 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Tikinti obyektinin istismarına icazə” və 2 nömrəli əlavə - “Reklam qurğusunun istismarına icazə” formalarında “Təqdim” sözü “Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 102.1-2-ci maddəsinə uyğun olaraq əldə” sözləri ilə əvəz edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “12” oktyabr 2023-cü il

№ 132